QARABAĞ AZƏRBAYCANDIR!

MÜBARİZ KEŞİKDƏ

12 noyabr 2020-ci il
Cümə axşamı

№ 41 (3506)

www.mk.mia.gov.az - polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

Polis xalqımıza, müstəqil Azərbaycan dövlətinə, onun hər bir vətəndaşına xidmət edir.

Heydər Əliyev

Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüşüblər.

Rusiya Prezidenti Vladimir Putin dedi:

-Axşamınız xeyir, hörmətli İlham Heydər oğlu.

Prezident İlham Əliyev: Axşamınız xeyir, Vladimir Vladimiroviç.

Prezident Vladimir Putin: Bu gün biz sizinlə Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin üçtərəfli bəyanatını imzalayırıq.

Mən çox ümid edirəm ki, bizim birgə bəyanatımızda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bizim bugünkü bəyanatda təsbit etdiyimiz razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə, həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə Azərbaycan Respublikası ilə Ermənistan arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Mən öz tərəfimdən demək istərdim ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə qoyulur, Azərbaycan torpaqlarının işğalına son qoyulur və saatlarla, ümumiyyətlə desək, günlərlə vaxt sərf edib mühüm mövqeləri razılaşdırmaq yolu ilə nizamlamaya nail olduq ki, mənim fikrimcə həm Azərbaycanın, həm də Ermənistanın və region ölkələrinin xalqlarının mənafelərinə cavab verir. Deməliyəm ki, indi bizim gördüyümüz münaqişənin hərbi-siyasi nizamlanması əminəm ki, regionumuzda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bizim regionda, Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biridir və bu gün həmin münaqişənin sona yaxınlaşması tarixi hadisədir, ilk növbədə, torpaqları çoxillik işğaldan azad olan Azərbaycan xalqı üçün tarixi hadisədir. Bu, həm də beynəlxalq hüququn norma və prinsiplərinin təntənəsi, BMT Təhlükəsizlik Şurasının əfsuslar olsun ki, uzun müddət kağız üzərində qalmış qətnamələrinin implementasiyasıdır.

Vladimir Vladimiroviç, Sizə həm əvvəlki illərdə və xüsusən münaqişənin qaynar fazası dövründə fəal iştirakınıza görə təşəkkürümü bildirmək istərdim. Bu gün üç ölkə rəhbərinin bu sənədi imzalaması bu münaqişənin nizamlanmasında Rusiya Federasiyasının xüsusi roluna dəlalət edir. Əminəm ki, regionda gələcək fəaliyyətdə, o cümlədən münaqişənin nəticələrinin aradan qaldırılması və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün Rusiya Federasiyasının rolu sanballı olacaq. Bu gün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana da münaqişənin siyasi yolla nizamlanması işində fəal iştirakına görə təşəkkürmü bildirmək istərdim. Bugünkü bəyanatın bəndlərindən biri Rusiya ilə Türkiyənin birgə sülhməramlı missiyasıdır. Beləliklə, biz regionda təkcə münaqişənin nizamlanması çərçivəsində deyil, həm də gələcək inkişaf üçün qarşılıqlı fəaliyyətin tamamilə yeni formatını yaradırıq. Buna görə də bəndlərdən biri də bütün nəqliyyat kommunikasiyalarının açılmasıdır. Bu, bütün region ölkələrinin xeyrinə olacaq. Ona görə də bu gün mən bu sənədi sevinc hissi ilə, qürur hissi ilə imzalayıram və bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını təbrik etmək istərdim. Sağ olun.

Prezident Vladimir Putin: Mənim fikrimcə, dediyim kimi, bu, həqiqətən həm erməni, həm də Azərbaycan xalqlarının xeyrinə və onların mənafeyi naminədir. Rusiya öz tərəfindən əlindən gələni edəcək ki, üç tərəf arasında danışıqların gedişində əldə edilmiş mövqelər, bu gün bizim imzaladığımız bəyanat hamısı icra olunsun. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, Vladimir Vladimiroviç. İmzalamaya başlayaq.

Prezident Vladimir Putin: Bəli.

Prezident İlham Əliyev və Prezident Vladimir Putin bəyanatı imzaladılar.

Prezident Vladimir Putin: Sizə təşəkkür edirəm, İlham Heydər oğlu.

Prezident İlham Əliyev: Çox sağ olun, Vladimir Vladimiroviç.

Prezident Vladimir Putin: Bu ərazilərdə yaşayan bütün insanlara, bütün xalqlara ən xoş arzularımı bildirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə biz xeyirxah iş gördük və bu regiondakı bütün ölkələr arasında münasibətlərin durmadan inkişafı, bu ərazilərdə yaşayan insanların, Azərbaycan və erməni xalqlarının rifahı üçün yaxşı baza şəraiti yaratdıq. Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bir daha sağ olun, Vladimir Vladimiroviç. Sizin şəxsi iştirakınıza görə təşəkkür edirəm və əminəm ki, bu gün baş verənlər Rusiya, Azərbaycan və Ermənistan xalqlarının tarixində çox mühüm tarixi gün kimi qalacaq. Bir daha sağ olun.

Prezident Vladimir Putin: Sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun.

Prezident Vladimir Putin: Xudahafiz.

Prezident İlham Əliyev: Xudahafiz.

Qələbəmizin nidası: *QARABAĞ AZƏRBAYCANDIR!*

Prezident İlham Əliyev: "Heç kim Azərbaycan xalqının səbri ilə oynaya bilməz..."

Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib.

Prezident İlham Əliyev bu günün ölkəmiz üçün tarixi bir gün olduğunu, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulduğunu bildirərək imzalanmış üçtərəfli bəyanatın mətnini diqqətə çatdırıb.

Ölkə başçısı bu bəyanatla Azərbaycanın tarixi qələbəsini gerçəkləşdirdiyini, 30 illik həsrətə son qoyulduğunu və ölkəmizin öz ərazi bütövlüyünü bərpa etdiyini vurğulayıb.

Erməni vandalları tərəfindən məscidlərimizin, milli mənəvi və mədəni, tarixi abidələrimizin dağıdıldığını, muzeylərimizin talan edildiyini, təbiətimizə böyük ziyan vurulduğunu deyən dövlətimizin rəhbəri Xocalı qurbanlarının, şəhidlərimizin qisasının alındığını bildirib.

Prezident müraciətində ölkəmizin beynəlxalq hüquqa hörmətlə yanaşdığını, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdiyini də diqqətə çatdırıb.

Yeni nəzarət mexanizminin tətbiq edilməsi məsələsinə toxunan Ali Baş Komandan münaqişə tərəflərinin razılaşmaya, bəyanatda əksini tapan müddəalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradıldığını, mərkəzdə Rusiya və Türkiyə hərbçilərinin fəaliyyət göstərəcəyini deyib.

Birinci vitse-prezident Mehriban Əliyevanın Qələbə təbriki

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.

O, Azərbaycan xalqını təbrik edərək bildirib ki, bu gün böyük gündür – Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq!

Birinci vitse-prezident qeyd edib ki, 2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi – Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərini çıxılmaz vəziyyətə saldı.

Hər birimiz Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva onu da bildirib ki, bu müharibə bizə əsrlər boyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

O, həmçinin kütləvi informasiya vasitələrinin nümayəndələrinə də öz təşəkkürünü bildirib...

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Azərbaycan Prezidenti Rusiya Hərbi Hava Qüvvələrinin helikopterinin Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində vurulması ilə bağlı faciə ilə əlaqədar başsağlığı verib.

*****

Elə həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.

Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik ediblər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşüblər.

Azərbaycanın qələbəsi dünya mediasında

Türkiyə kütləvi informasiya vasitələri Ermənistan silahlı qüvvələrinin müzəffər Azərbaycan Ordusu qarşısında davam gətirə bilməməsi, təcavüzkar tərəfin işğalçılıq siyasətindən əl çəkməyə məcbur edilməsi, bu vəziyyətin yaratdığı siyasi proses barədə ən yeni xəbərləri dünya ictimaiyyətinə çatdırmaqda davam edir.

Prezident İlham Əliyev və Prezident Vladimir Putinin videokonfrans formatında görüşü, dövlətimizin başçısının Azərbaycan xalqına müraciəti, qələbə sevincinin ölkəmizdə coşqu ilə qarşılanmasına dair vəziyyəti çatdırırlar. O cümlədən Ermənistandakı ictimai-siyasi gərginlik barədə məlumatlar ən maraqlı xəbər kimi təqdim olunub.

*****

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Qarabağ bölgəsinin gələcəyini bir sülh sahəsi olaraq görürük. İnvestisiyalar və inkişaf təcrübəmizlə bu bölgəni dünyanın ən çiçəklənən bölgələrindən birinə çevirə bilərik və dinc yanaşı yaşaya bilərik. Ancaq bunun üçün müharibənin nəticələri ortadan qaldırılmalıdır" sitatı İsveçrənin nüfuzlu "Tages Anzeiger" qəzetində dərc edilib.

Məqalədə Prezident İlham Əliyevin "Biz BMT Təhlükəsizlik Şurasının qərarlarını təkbaşına yerinə yetiririk" sözləri də İsveçrə siyasi xadimlərinin diqqətini çəkib.



*****

Yaponiyanın kütləvi informasiya vasitələri noyabrın 10-da Moskva vaxtı ilə gecə saat 00:00-dan qüvvəyə minən və Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələri ilə Azərbaycan Ordusu arasında davam edən döyüşlərin tam dayandırılmasını nəzərdə tutan Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı birgə bəyanatı geniş işıqlandırıb.

Yaponiyanın "NHK" telekanalı, "Kyodo" və "Jiji Press" informasiya agentlikləri, "Asahi shimbun", "Mainichi shimbun" kimi nüfuzlu qəzetləri və digər çoxsaylı kütləvi informasiya vasitələri bunun tərəflər arasında sentyabrın 27-də başlamış döyüşlərin dayandırılması ilə əlaqədar sayca dördüncü razılaşma olduğunu bildirib.

*****

Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə razılaşma Ermənistanın kapitulyasiyasıdır.

Bu barədə Ukraynanın "RBK-Ukrayna" informasiya agentliyi dərc etdiyi məqaləsində qeyd edib.

Məqalədə Prezident İlham Əliyevə istinadla vurğulanır ki, bu qərar Azərbaycan üçün tam məqbuldur və faktiki olaraq Ermənistanın hərbi kapitulyasiyasıdır.

"Biz istədiyimizə nail olduq, istədiyimiz hədəfə çatdıq", - deyə dövlətimizin başçısının fikri qeyd olunub.

*****

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Dağlıq Qarabağda 44 gündür davam edən döyüşlərin dayandırılması barədə imzaladığı birgə bəyanat Avstraliya KİV-lərinin də diqqət mərkəzindədir.

"7news.com.au", "sbs.com.au", "news.com.au", "smh.com.au", "9news.com.au" saytlarının və digər kütləvi informasiya vasitələrinin yaydığı məlumatlarda Azərbaycan Prezidenti İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 9-da imzaladığı birgə bəyanat, onun iştirakçı ölkələrin xalqları tərəfindən necə qarşılanması əksini tapıb.



Polis polkovnik-leytenantı Həmid Həsənov: "Şəhidlərimizin xatirəsini əziz tutmaq hər birimizin müqəddəs borcudur"

Şuşa şəhərinin işğaldan azad olunması və Vətən müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması münasibətilə Xaçmaz Rayon Polis Şöbəsində şəhid ailələri ilə görüş keçirilib.

ŞƏHİD AİLƏLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLDİ

Əvvəlcə torpaqlarımızın azadlığı və bütövlüyü uğrunda canlarından keçən oğul və qızlarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

1988-ci il hadisələrindən sonra Ermənistan tərəfindən işğala məruz qalan torpaqlarımızın Ali Baş Komandanımızın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən qəhrəmancasına azad olunmasından fəxrlə danışan **RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Həmid Həsənov** torpaqlarımızın hər qarışı uğrunda canını fəda edən, ölümün gözünə dik baxaraq şəhid olan igid oğullarımızın sayəsində qələbəyə imza atdığımızı bildirib.

Qeyd olunub ki, cəmi 44 gün ərzində düşmənin keçilməz saydığı sədləri yararaq Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, kənd və qəsəbələrin, o cümlədən strateji yüksəkliklərin və noyabr ayının 8-də Azərbaycanın musiqi beşiyi, Qarabağın gözü olan Şuşa şəhərinin işğaldan azad edilməsi bizim bir xalq olaraq birliyimizin bariz nümunəsi idi. Müharibəni dayandırmaq üçün dövlət başçımıza edilən təzyiqlər bitib-tükənməsə də xalqımızın gücünə, birliyinə arxalanan möhtərəm Prezidentimiz güclü iradə nümayiş etdirdi. Əsl tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması uğrunda diplomatiyamız da siyasət meydanının ön cəbhəsində oldu. Biz hər iki cəbhədə qalib gəldik və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik.

Vətən uğrunda şəhid olan igid oğullarımızın ailələrinə başsağlığı verən H.Həsənov şəhidlərimizin qanının yerdə qalmadığını vurğulayıb. O, bildirib ki, onların əziz xatirəsi hələ bundan sonra yüz illər boyu yaşayacaq. Politoloq Ağacan Məmmədov bu tarixi qələbəmizdən sonra işğaldan azad edilmiş torpaqlarımızda tezliklə abadlıq və quruculuq işlərinə başlanacağını, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıdacaqlarını diqqətə çatdırıb.

Görüşdə iştirak edən şəhid ailələrinin üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə və DİN rəhbərliyinə, eləcə də Xaçmaz Rayon Polis Şöbəsinin kollektivinə minnətdarlıqlarını bildiriblər.

*****

Şuşa şəhərinin işğaldan azad olunması və böyük qələbəmiz münasibəti ilə Xaçmaz şəhərində avtoyürüş keçirilib. Yürüş zaman Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən yüksək səviyyədə təhlükəsizlik tədbirləri həyata keçirilmiş, baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində bütün lazımi tədbirlər görülmüşdür.

Nizam Həmidov,
polis baş leytenantı

QƏLƏBƏ İLƏ AÇILAN SABAHIMIZ

Günəş dan yeri açılmamış doğdu, hamı şirin yuxusundan şirin xəbərlə oyandı. Bu, o sabah idi ki, 30 il həsrətini çəkdiyimiz Qarabağımız işğaldan azad olundu. Bu, o gün idi ki, şəhidlərimizin qanı yerdə qalmadı. Hər gün kaş ki, o gün olaydı dediyimiz gün yetişdi. Hələ dil açmayan, müharibənin, qələbənin nə olduğunu dərk etməyən körpələr belə bu sevincə qatıldı. Sanki bu səhər bir bayraq boyu onlar da böyüdülər. Bu elə bir sabah idi ki, şəhid analarının qanayan yarasına qələbə xəbəri məlhəm oldu.

Cənab Ali Baş Komandanımızın dediyi "Qarabağ Azərbaycandır!" şüarı küçələrdə sevinclə, fəxrlə, qürurla səslənirdi. Hamımızın, düşmən torpağında inləyən, bu günü dözüb gözləyən torpaqların da arzusu çin olmuşdu. Noyabr ayında bahar yenidən qayıtmışdı. Yer-göy gülürdü, ulu Tanrımız da müjdələyirdi bizi sanki.

Qələbəmizi ulu öndərimizin davamçısı, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev başda olmaqla müzəffər ordumuza, torpaqlarımızın azadlığı yolunda canından, qanından keçmiş Vətən oğullarımıza borcluyuq. Hamımızın dilində bu gün şükürlər olsun kəlməsidir. Bəli, şükürlər olsun ki, ərazi bütövlüyümüz bərpa olundu.

Ruhiyyə Əliyeva,
polis baş leytenantı

Görünməz düşmənə də qalib gələk

Polis bütün cəbhələrdə döyüşmək üçün səfərbər olub

Yoluxanların sayı günbəgün artır. Artan ölüm statistikası da vəziyyətin daha ciddiyə alınmasını önə çıxarır.

Ordumuzun əzmi qarşısında tab gətirə bilməyən düşmən məğlubiyyətini etiraf etdi. Biz XXI əsrə adımızı qalib dövlət kimi yazdırmağı bacardıq.

Lakin unutmayaq ki, əsas qorxulu düşmən arxa cəbhədədir. Üstəlik bu düşmən gözəgörünməzdir...

Pandemiya ilə mübarizənin ön sıralarında olan daxili işlər orqanlarının əməkdaşları vətəndaşların sağlamlığının qorunması, eləcə də elan edilən xüsusi karantin rejimi qaydalarına riayət olunması məqsədilə mütəmadi olaraq reydlər keçirir, müəyyən edilmiş qaydalara əməl etməyən şəxslər barədə qanunvericiliyin tələblərinə uyğun tədbirlər görür. Reydlər zamanı ictimai nəqliyyatda, qapalı məkanlarda, iaşə obyektlərində tənəffüs yollarını qoruyan tibbi maskalardan istifadə etməyən şəxslərlə profilaktik-maarifləndirmə işləri aparılır. Söhbətlər zamanı qoruyucu maskalardan təyinatı üzrə istifadə etməyən şəxslərə həm özünün, həm də ətrafdakı insanların sağlamlığını təhlükə altına qoyduğu izah edilir. Polis əməkdaşları sanitar-epidemioloji qaydalara cərimələrdən qorunmaq üçün yox, sağlamlığımız üçün əməl etməyin vacib olduğunu vətəndaşların diqqətinə çatdırır. Onlara görülən işlərdə polisə dəstək, habelə sağlamlıqlarına qarşı daha məsuliyyətli olmaları tövsiyə olunur.

Teymur Əlizadə,
polis kapitanı

Gözün aydın, Azərbaycan, gözün aydın, Naxçıvan!

10 noyabr dünya azərbaycanlılarının həyatına şanlı bir tarix kimi daxil oldu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin bu mübarək tarixdə Rusiya lideri Vladimir Putinlə videoformat səviyyəsində keçirdiyi görüşdə imzaladığı bəyanat Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoydu. Dövlət başçımızın təbirincə desək, bizə maksimum sərf edən bu sənədi Ermənistanın baş naziri Nikol Paşinyanın da imzalaması erməni tərəfin məğlubiyyətinin etirafı, hərbi kapitulyasiyadır. Bəli, bu bəyanat bizim şanlı qələbəmizdir!

Xoşbəxt millətik ki, bu qələbə müjdəsini bizə ötən 44 gün ərzində hünər dastanı yazmış Milli Ordumuzun önündə gedən yenilməz sərkərdəmiz İlham Əliyev özü verdi. O İlham Əliyev ki, bu müddətdə, bu haqq işində, bu mübarizədə dünya ermənilyinin fitvası ilə hərəkət edən, artıq maskalarını da çıxararaq aşkar şəkildə Azərbaycanın haqqı, ədaləti yerbəyer etmək naminə apardığı savaşda onun zəfərli irəliləyişini ləngitməyə və dayandırmağa səy göstərən məkrli qüvvələrin qarşısında yenilməz iradəsi və sarsılmaz qətiyyəti ilə dayandı. Milli Məclisin deputatı, akademik Rəfael Hüseynovun təbirincə desək, şiddətli selin qarşısında məğrur və qalib dayana bilməyi məhz İlham Əliyev kimi güclü lider bacara bilərdi. Necə ki, bacardı. İlham Əliyev bu gün bütöv millətin səsi, millətin iradəsidir. O, həm də hər növ düşmənimizin və onların çeşid-çeşid dəstəkçilərinin qarşısında millətin gərilmiş köksüdür.

Minnətdar olaq Prezidentimizə! Dayaq duraq Prezidentimizə, – hər kəs bacardığı qədər, hər kəs imkanınca!

10 noyabrda imzalanmış bu üçtərəfli bəyanat həqiqətən də tarixi bəyanatdır. Bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bircə kəlmə də yoxdur. Bu, siyasi qələbədir. Yaxud, bəyanat bizə imkan verəcək ki, işğal altında olan digər rayonlarımızı – Ağdamı, Laçını və Kəlbəcəri qan tökmədən qaytaraq. Çox qısa müddətdə, bu ayın sonuna kimi bu rayonlar da özümüzə qaytarılacaq. Bu, böyük xoşbəxtlikdir.

Ön cəbhədə olduğu kimi siyasət meydanında da qalib olduq

Bəyanatdakı önəmli məsələlərdən biri də Vətənimiz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə bağlıdır. Xatirimizdədir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan mənfur düşmənin mühasirəsində idi. Onu yalnız ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti azad etdi, – bütün kommunikasiya xətləri, enerji resursları kəsilmiş Naxçıvan işğal altına düşmədi. "Mübariz keşikdə" qəzetinin müxbiri kimi bu qədimdən-qədim diyara ezam olunarkən canlı şahidi olmuşam ki, elə bir ağır şəraitdə yaşayan Muxtar Respublikanın mərd oğulları hələ münaqişənin lap əvvəllərindən ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlarda necə mərdliklə iştirak edib, bu haqq işində canlarını qurban verməkdən belə çəkinməyiblər. Digər bölgələrimizdən olan vətəndaşlarımız kimi naxçıvanlılar ikinci Qarabağ müharibəsində də fəal iştirak edərək torpaqlarımızın azad edilməsi işində fədakarlıq və qəhrəmanlıq göstərdilər, şəhidlər verdilər. Bəyanatda Muxtar Respublikanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi təsbit olunur. Bütün kommunikasiyalar, yollar açılacaq, yeni nəqliyyat-kommunikasiya infrastrukturu yaradılacaq. Bu da bir tarixi addım. Maraqlıdır ki, bütün bunları özündə ehtiva edən bu bəndin birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqəsi yoxdur. Bu bənd yalnız möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təkidli tələbi ilə qəbul olunub.

Düşünürəm ki, hər dəfə bu bəyanatı oxuyanda görəcəyik ki, biz nə qədər böyük siyasi qələbə qazanmışıq. Bu siyasi qələbəmizin qazanılmasında hərbi qələbəmiz müstəsna rol oynayıb. Cənab İlham Əliyev millətimizə "Qələbə" sözünün şirinliyini dadızdırdı. Başa saldı ki, qarşımızda ən keçilməz sədlər olsa belə, biz onları fəth etməyə qadirik. Anlatdı ki, damarlarımızda axan qan 30 illik işğal zillətini 44 gün içərisində zəfər yürüşləri ilə sındıracaq qüdrət qanıdır.

Biz beynəlxalq hüquqa hörmətlə yanaşdıq, beynəlxalq hüququ müdafiə etdik, ədaləti müdafiə etdik və... Qalib gəldik!

Gözün aydın, Azərbaycan!
Gözün aydın, Naxçıvan!

Rahib Qarayev,
Şəxsi Heyətlə İş İdarəsinin rəisi,
polis polkovniki

BMT-dən mühüm dəstək

BMT Moskva, Bakı və İrəvan arasındakı razılaşmanı alqışlayır və razılaşmaların həyata keçirilməsində tərəflərə kömək üçün hər şeyi edəcək.

"RİA Novosti"nin məlumatına görə, bunu təşkilatın baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik brifinqdə deyib.

"Rusiya rəhbərliyinə gördükləri işə görə çox minnətdarıq", - deyən Düjarrik, BMT Baş katibi Antonio Quterreşin razılaşma ilə bağlı məlumatları alan zaman "rahat nəfəs aldığını" bildirib.

"Rahatlıq hissimiz bunun mülki əhalinin çətinliklərinə son qoyacağına ümid etməyimizlə bağlıdır. Bu razılaşmanın əldə olunmasını alqışlayırıq. Tərəflərə bu razılaşmaların həyata keçirilməsində dəstək olmaq üçün əlimizdən gələni edəcəyik", - deyə təşkilat rəsmisi qeyd edib.

Tarixi qələbəmizi təsdiq edən bəyanatın şərhi

1) Qeydsiz-şərtsiz bizim olacaq və düşmənimizin ayağının dəyməyəcəyi ərazilər: Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli, Laçın, Kəlbəcər, Ağdam, Qazax, Şuşa və Hadrut.

2) Azərbaycanlıların və ermənilərin birgə yaşayacağı ərazilər: Xankəndi, Xocavənd, Xocalı və Ağdərə.

3) Təhlükəsizliyin qarantları-Rusiya və Türkiyə.

4) Azərbaycanın tarixi uğuru-Naxçıvanla Azərbaycanı birləşdirən "bir neçə nöqtədən" dəhliz.

5) Ermənilərə olan humanistliyimiz-Laçın koridorundan Şuşa xaric Dağlıq Qarabağa gediş-gəliş üçün dəhliz.

6) Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq! "Artsax" adlı qondarma "dövlət" tarixə qovuşdu.

#Shusha həştəqi tvitterdə trend oldu

Noyabrın 8-də Şuşa şəhəri işğaldan azad edilib.

Bununla bağlı tvitter mikrobloqunda #Shusha həştəqi ilə paylaşımlar dünya üzrə trend olub. Həştəq üzrə atılan tvitlərin sayı 25 mini keçərək dünya üzrə 5-ci yerdə qərarlaşıb. Həmçinin, #Shusha həştəqi ilə paylaşım tvitterin ABŞ seqmentində də 4-cü yerə yüksəlib.

Qazilərimizə polisdən mənəvi dəstək

Hacıqabul Rayon Mühafizə Bölməsinin əməkdaşları torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə yaralanan və Rayon Mərkəzi Xəstəxanasında müalicə alan əsgərlərimizə baş çəkiblər. Qazilərimizə şəfa diləyən həmkarlarımız tezliklə sağlamlıqlarına qovuşmalarını, ölkəmizin qazandığı və onların da payı olan böyük qələbənin sevincini doğmaları ilə birlikdə qürurla qeyd etmələrini arzulayıblar.

Polis övladı qaliblər sırasında

Ölkəmizin beynəlxalq miqyasda tanınmasında idmanın rolu danılmazdır. İdmanın ümummilli hərəkata çevrilməsi, inkişafı gələcək nəslin sağlam, vətənpərvər ruhda böyüməsinə xidmət edir. Yeri gəlmişkən, sıralarımızda yüzlərlə idmançı polislər var. Onların idman uğurlarını sadalamaqla bitməz. Polis polkovniki Zemfira Meftaxətdinova, polis polkovnik-leytenantı Mehman Fətəliyev, polis polkovnik-leytenantı Eduard Məmmədov, polis mayoru Həsən Əliyev, polis baş serjantı Razim Hüseynov adlarını dünya idman tarixinə qızıl hərflərlə yazdırmağı bacarıblar. Sevinirik ki, uğur estafeti nəsildən-nəsilə ötürülür, gənc nəslə örnək ömür yaşayanların davamçıları yetişir və onlara olan inamı doğruldurlar.

Gecəli-gündüzlü, ayıq-sayıq xidmət aparan həmkarlarımızın övladları da təhsildə, idmanda, incəsənətin müxtəlif növlərində əldə etdikləri nailiyyətlərilə bizləri sevindirirlər.

Bugünlərdə Vətən savaşında əldə etdiyimiz uğurlara idmançı gənclərimiz də dəstək nümayiş etdiriblər. Belə ki, noyabrın 5-i və 6-ı tarixlərində Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Şəhidlərin xatirəsinə həsr olunmuş idmanın "Vale Tuda" (MMA) növü üzrə Bakı birinciliyi keçirilib. Turnirdə iştirak edən **Abşeron RPİ rəisinin xidmət üzrə müavini, polis polkovniki Elçin Rəcəbovun oğlu, dəfələrlə müxtəlif döyüş növləri üzrə yarışların qalibi Qələmi Rəcəbov** yenə də mükafatçılar sırasına adını yazdırmağı bacarıb. O, çıxış etdiyi 70 kiloqram çəki dərəcəsində rəqiblərini üstələyərək finala vəsiqə qazanıb. Çətinliklə keçən döyüşün sonunda qarşı tərəf sevinib. Mükafatların təqdim olunması üçün Q.Rəcəbov fəxri kürsünün II pilləsinə dəvət olunub.

On iki yaşından idmanla məşğul olduğunu, ölkəmizdə və dünyada keçirilən hər bir yarışa ciddi hazırlaşdığını deyən Qələmi fiziki deyil, yalnız təcrübə baxımdan rəqibindən geri qaldığını, hər yarışın hədəfləri müəyyənləşdirməyə kömək etdiyini bildirdi.

Qeyd edək ki, həmkarımızın övladı Q.Rəcəbov idman nailiyyətləri ilə yanaşı, ictimai işlərdə də fəallığı ilə tanınır. O, Təhsil Nazirliyinin "Bir Tələbə-Könüllü" Proqramının Gəncə Dövlət Universitetinin koordinatoru, Gəncə Dövlət Universitetinin Pedaqoji fakültəsinin Tələbə Gənclər Təşkilatının sədridir.

T.Əlizadə,
polis kapitanı

PREZİDENTƏ YAZILAN MƏKTUBLAR

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı tarixi qələbə Azərbaycan vətəndaşlarına, xaricdə yaşayan soydaşlarımıza böyük sevinc və qürur hissi yaşatdı. Onlar dövlətimizin başçısına ünvanladıqları məktublarda bu hisslərə görə sonsuz minnətdarlıqlarını ifadə edirlər.

Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edirik.

Şuşa şəhər sakini, şəhid polis baş leytenantı Məhəddin Hümbətovun həyat yoldaşı, polis polkovnik-leytenantı **Xatirə Məhərrəmova yazır:** "Hörmətli cənab Prezident! Hörmətli Ali Baş Komandan! Siz, yüksək təmkin nümayiş etdirərək tarixi faktlarla, məntiqli çıxışlarınızla işğal altında olan şəhər və rayonların sakinlərinin ölmüş ümidlərini oyatdınız, əsgərlərimizi, xalqımızı ruhlandırdınız. Sizin düzgün siyasətinizin nəticəsidir ki, 30 ildən sonra torpaqlarımız erməni separatçılarından təmizləndi, şəhidlərin qisası alındı.

Vətənimizin bir parçası və hər birimizin müqəddəs bildiyi Qarabağ uğrunda şəhidlik zirvəsinə ucalanların, o cümlədən 90-cı ildən bu yana şəhid olan polis əməkdaşlarının ailə üzvləri adından Sizə dərin minnətdarlığımızı bildiririk.

Qalib ölkənin vətəndaşı olmaq qürurunu və sevincini sözlə ifadə etmək çox çətindir

Azərbaycanın dilbər güşəsi, Qarabağın mirvarisi olan Şuşanın işğaldan azad edilməsi xəbərini Sizdən eşidəndə göz yaşlarımızı saxlaya bilmədik. Bu gün hər bir azərbaycanlının ürəyində, dilində bir söz var: Yaşasın cənab Prezidentimiz, yaşasın Azərbaycan!

Möhtərəm Ali Baş Komandanım! Bilin və əmin olun ki, Qarabağlılar, Şuşalılar Vətən uğrunda şəhid olanların ailə üzvləri və bütünlükdə Azərbaycan xalqı Sizin arxanızdadır.

Biz Sizə güvənirik, çətin və şərəfli işinizdə Sizə uğurlar diləyirik və nə xoşbəxtik ki, Sizin əsgərinizik.

Almaniyanın Ştutqart şəhərindən Cəfər Süleymanov yazır: "Hörmətli cənab Prezident, Sizə bu Qələbəni yaşaya bilməyimiz üçün verdiyiniz şücaətli, möhtəşəm iradə və mübarizəyə görə təşəkkür edirəm. Şuşa bizim gözümüz, Şuşa bizim canımızdır. Siz bizi yenidən diriltdiniz, Siz bizə ikinci həyat verdiniz. Sizin rəhbərliyiniz altında gözəl və şərəfli günlər bizi gözləyir. Bir millət olaraq sona qədər Sizin arxanızdayıq. Allah Sizi, Ordumuzu və xalqımızı qorusun! Qarabağ Azərbaycandır!"

Türkiyənin İstanbul şəhərindən Pəri Çəndirova: "Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan, Sizə uğurlu siyasətiniz və Azərbaycan xalqı olaraq bizlərə yaşatdığınız Qələbə sevinclərinə görə təşəkkür edirəm. 8 noyabr tarixində Şuşanın geri alınması xəbəri ilə bizə qürur hissi bəxş etdiniz. Hər zaman böyük bir maraq və həyəcan hissi ilə Sizi izləyirik. Xaricdə yaşayan vətəndaş olaraq, ilk növbədə, öz adımdan və çevrəmdə olan soydaşlarımızın adından Sizə təşəkkür edir və Sizi dəstəkləyirik. Dünya azərbaycanlıları olaraq apardığınız siyasətdə Sizə uğurlar arzu edir, ölkəmiz, xalqımız üçün daha böyük nailiyyətlər əldə etmənizi diləyirik. Qələbə hər zaman bizimlə olsun!".

Deməyə sözləri çoxdur...

"Təəssüflər olsun ki, bizim taleyimizə mənfur, namərd düşmənlə qonşu olmaq yazılıb. Uzun illərdir ki, başımız onların üzündən çox bəlalar çəkib.

Biz hər zaman sülh əmin-amanlıq istəmişik, onlar isə pis niyyətlərindən dönməyiblər. Dəfələrlə atəşkəsi pozub, dinc əhalini bombardmana məruz qoyublar. Nəhayət ki, Ali Baş Komandanımızın başçılığı altında müzəffər Ordumuz düşmənə öz yerini göstərdi. Müharibə şəraitində, bu cətin dönəmdə, milli-mənəvi ruh yüksəkliyi və biri-birimizə mənəvi dəstək olmaq, həmrəyliyini nümayiş etdirmək əlbəttə ki, çox önəmlidir. Arxa cəbhədə asayişi və sabitliyi qoruyan Azərbaycan Polisinin fədakar və gərgin xidmətini xüsusi qeyd etmək istəyirəm. Yeri gəlmişkən, şəhidlərimizin dəfnində Rayon Polis Şöbəsinin rəhbərliyinin və şəxsi heyətinin iştirak etməsi bizə böyük dəstək oldu. Azərbaycan Polisi hər yerdə, günün istənilən saatında bizim yanımızdadır. Onlar bizim güvənc yerimizdirlər",-deyə **Beyləqan şəhər sakini Anar Zeynalov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır.

Hər məktubdan inam və qürur hissi boy verir

Bərdə rayon sakini Vüsal Baxşaliyevin təşəkkür məktubunda Azərbaycan Polisinin peşəkar fəaliyyətindən qürurla, inamla bəhs etməsi vətəndaş məmnunluğunun bariz nümunəsidir.

Bakı şəhər sakini Şəhla Namazovanın da məktubu təşəkkür doludur. O, müraciətinə tez bir zamanda baxılaraq müsbət həllini tapmasında Binəqədi RPİ 5-ci Polis Bölməsinin əməkdaşlarının xidmətini yüksək qiymətləndirməklə yanaşı, polis-vətəndaş münasibətlərinin günü-gündən daha da yaxşılaşmasını xüsusi qeyd edir.

Paytaxt sakini Vüsalə Hüseynova yazır: "Avtomobilimdə nasazlıq yarandığından yolda qalmışdım, nə edəcəyimi bilmirdim. Sağ olsunlar, Yol Patrul Xidməti əməkdaşları köməyimə yetişdilər".

Ələkbər Hüseynov isə avtomobillərin texniki baxış məntəqəsində yaradılmış şəraitdən və vətəndaşlara göstərilən xoş münasibətdən məmnundur.

"Əl çantamı itirmişdim. Nəsimi Rayon Polis İdarəsinə müraciət etdim. Heç bir gün keçmədi ki, polislər çantamı tapıb mənə təhvil verdilər. Minnətdarlığım sonsuzdur",- bu fikirlər İmişli rayon sakini Tünzalə Əliyevanın məktubundandır.

Aytəkin Nəcəfova,
polis polkovnik-leytenantı

Polislər Oğuzda əsgər ailəsini ziyarət ediblər

Oğuz Rayon Polis Şöbəsinin əməkdaşları torpaqlarımızın mənfur düşməndən azad olunması uğrunda gedən döyüşlərə könüllü qatılan Xaçmazqışlaq kənd sakini Taleh Məhərrəmovun ailəsini ziyarət ediblər.

Həmkarlarımız özləri ilə gətirdikləri sovqatı əsgərimizin anası Çimnaz Məhərrəmovaya təqdim ediblər və xalqımıza qələbələr yaşadan Taleh kimi igid oğullarla, Azərbaycan əsgəri ilə ölkəmizin hər bir vətəndaşının qürur duyduğunu diqqətə çatdırıblar.

Əsgər anası göstərilən maddi və mənəvi dəstəyə görə Rayon Polis Şöbəsinin rəhbərliyinə təşəkkürünü bildirib.

Mahir Məsimov,
polis baş leytenantı

ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Nizami rayonu ərazisindəki lombardların birindən Rayon Mühafizə İdarəsinə həyəcan siqnalı daxil olmuşdur. Dərhal hadisə yerinə gələn **Nizami Rayon Mühafizə İdarəsinin** əməkdaşları orada tapançaya oxşar əşya ilə hədə-qorxu gəlib pul tələb etmiş naməlum şəxsi saxlayaraq 25-ci PŞ-yə təhvil vermişdir.

Araşdırmalarla quldurluğu törətməkdə şübhəli bilinən həmin şəxsin paytaxt sakini E.İsgəndərov və əlindəki tapançaya oxşar əşyanın isə alışqan tapança olması müəyyən edilmişdir.

*****

Xətai rayonunun M.Hadi küçəsindəki mənzillərin birində kirayədə yaşayan naməlum şəxs Bakı şəhər sakini Ə.Adilovu aldadıb mənzilə dəvət etmiş və orada onu bıçaqla hədələyib 24 manat pulunu və mobil telefonunu almışdır.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində quldurluğu törətməkdə şübhəli bilinən həmin şəxsin Babək rayon sakini İ.Abdullayev olması müəyyən edilmiş və o, saxlanılmışdır.

Xətai RPİ tərəfindən araşdırma aparılır.

*****

Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında Lənkəran şəhəri ərazisində keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini E.Abdullayev saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 1 kiloqramdan artıq heroin götürülmüşdür.

*****

Xəzər RPİ 1-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Türkan qəsəbəsindəki evlərin birindən 12285 manat pul oğurlamaqda şübhəli bilinən qəsəbə sakini Ş.Əliyeva saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilərək götürülmüşdür.

*****

Nizami (Gəncə) RPİ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Gəncə şəhərindəki evlərin birindən 500 manat pul və 5900 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş C.Kazımov saxlanılmışdır.

*****

Sabunçu RPİ 14-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabırn 15-də rayon ərazisindəki evlərin birindən 1200 ABŞ dolları, min manat dəyərində kompüter, məişət əşyaları və eynək oğurlamaqda şübhəli bilinən Ağdam rayon sakini Ə.Hüseynov saxlanılmışdır.

*****

Binəqədi RPİ 7-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisindəki oyun zallarının birindən 8250 manat dəyərində 5 ədəd televizor, 10 ədəd kompüter və 5 ədəd oyun aparatı oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini M.Paşayev saxlanılmışdır.

*****

Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən müvafiq tədbirlərlə COVID-19 virusuna yoluxmuş 3 nəfər rayon sakininin yaşayış yerlərini tərk etdiyi müəyyən edilmişdir.

Belə ki, rayonun Qazma kənd sakini A.Xəlilov, şəhər sakinləri Ş.Əhmədova və onunla eyni ünvanda yaşayan T.Kaltayevanın koronavirus testinin nəticəsi pozitiv çıxdığına görə, onlara ev şəraitində müalicə təyin olunmuşdur. Həmin şəxslərə yaşayış yerlərini tərk etməmələri, qaydalara riayət etmələri tapşırılmışdır. Polis əməkdaşları tərəfindən ev şəraitində müalicə alan COVID-19 infeksiyasına yoluxmuş şəxslər yoxlanılan zaman onların qaydaları pozaraq, yaşadıqları ünvanları tərk etdikləri aşkar olunmuşdur. Dərhal keçirilən tədbirlərlə həmin şəxslərin rayon ərazisində olduqları yer müəyyən edilmişdir. Onlar təcili tibbi yardım avtomobilinə mindirilərək koronavirusa yoluxmuş şəxslərin müalicə aldığı xəstəxanaya yerləşdirilmişlər.

*****

Yasamal RPİ-nin 28-ci Polis Bölməsinə müraciət edən Bakı şəhər sakini O.Həsənzadə noyabrın 1-də A.M.Şərifzadə küçəsindən "Mitsubishi" markalı avtomobilinin qaçırılmasını bildirmişdir.

H.Z.Tağıyev qəsəbəsi ərazisində karantin rejimi ilə əlaqədar qurulmuş postda nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakinləri Z.İbrahimov və əvvəllər məhkum olunmuş Q. Sadıqov avtomobillə birgə saxlanılmış və Sumqayıt ŞPİ-yə təhvil verilmişlər.

Natiq Cavadov

"İş başında" yaxalandılar

Binəqədi RPİ 40-cı Polis Bölməsinin əməkdaşları tərəfindən uğurlu əməliyyat həyata keçirilib. Rayonda baş vermiş oğurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.

Keçmiş məhkumlar oğurluğa görə mühakimə olunublar

Növbətçi hissəyə rayon ərazisində bir avtomobildən 3750 manat dəyərində avtomobil ehtiyat hissələrinin oğurlanması barədə məlumat daxil olub. **Bölmə rəisi, polis polkovnik-leytenantı Ramil Cəbiyev** işi nəzarətə götürüb və bölmənin rəis müavini, polis polkovnik-leytenantı Elxan Bədəlov, əməliyyat müvəkkili, polis baş leytenantı Ceyhun Əkbərov və sahə inspektoru, polis leytenantı Yasin Ağayevdən ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində oğurluğu törətmiş Həsənağa Əliyev, əvvəllər məhkum olunmuşlar-Anar Cəfərov və Yusif Ağayev saxlanılıblar. Onlar gecə saatlarında yoldan keçərkən avtomobilin nəzarətsiz qaldığını, eləcə də küçədə kimsənin olmadığını fürsət bilib daşla maşının şüşəsini sındırıblar. Ehtiyat hissələrini götürüb ərazidən uzaqlaşıblar. İzi itirmək məqsədilə əldə etdikləri "qənimətin" bir hissəsini Biləsuvarda satmaq istəyərkən asayiş keşikçiləri tərəfindən iş başında yaxalanıblar. İş maddi sübutlarla birlikdə aparılması üçün istintaqa təhvil verilib. Nəfsləri keçmiş məhkumların yolunu yenə həbsdən salıb.

Teymur Əlizadə,
polis kapitanı

Noyabr ayının 4-dən 11-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 158 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 70 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 118, o cümlədən borclu şəxs qismində axtarışda olan 69 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 16 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 19 nəfər ölmüş, 14 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 96 fakt müəyyən edilmişdir.

MARAQ DÜNYASI

ƏSNƏMƏK NƏLƏRƏ FAYDALIDIR?

Bu xəbəri nəzərdən keçirərkən siz, yəqin ki, əsnəyəcəksiniz. Biz niyə və nə üçün əsnəyirik? Çoxları bu sualı özünə verir. Əsnəmə-nəfəs hərəkətidir, adətən qeyri-iradi olub dərindən nəfəsalma və enerjili nəfəsvermədən ibarətdir. Əsnəmə təkcə insana xas deyil. Deyirlər ki, hətta qurbağalar belə əsnəyir. Əsnəmə-bütün heyvanlarda mövcud olan qədim instinktin təzahürüdür. İnsanların çoxu əsnəyən digər adama baxarkən özləri də əsnəyirlər.

Əsnəmə-çox keçici vərdişdir. 42-50 faiz hallarda insanlar kollektiv şəkildə əsnəyirlər, amma 4 yaşından kiçik uşaqlar bu hərəkəti təkrar etmirlər. Şimpanzelər də insanlar kimi kollektiv şəkildə əsnəyə bilirlər.

Bəs insanın əsnəmək nəyinə lazımdır?

Birincisi, bu reflektor aktın köməyi ilə orqanizmdə oksigen və karbonun miqdarı tarazlaşır, yəni, əgər insan uzun müddət oksigen çatışmayan boğanaq bir yerdə qalıbsa, o, tez-tez əsnəyəcək. Orqanizm bununla balansı bərpa etməyə çalışır.

İkincisi, əsnəmə orqanizmin bütün reaksiyalarını fəaliyyətə gətirir. Məhz bu səbəbdən insan günün yorğunluğunu hiss edərək səhərdən əsnəyir. Oksigen axını qan dövranını yaxşılaşdırır, diqqəti gücləndirir, gümrahlıq bərpa edilir. Gün ərzində təkrarlanan daimi əsnəmə orqanizmin həddən artıq yorğun olduğundan xəbər verir.

Üçüncüsü, əsnəmə beynin qidalanmasını təmin edir. Uzun müddət fiziki və ya əqli fəaliyyətsizlikdən sonra nəfəs, əsəb hüceyrələrinin fəaliyyəti yavaşlayır, orqanizmdə, xüsusən də beyində oksigen çatışmazlığı başlayır, ona görə də əsnəmə baş verir. Beləliklə, oksigen çatışmazlığı aradan qalxır, baş beyindəki damarlarda qan dövranı normaya düşür. Həmçinin, yaddan çıxarmayaq ki, əsnəmə prosesində üz və boyun əzələləri gərilir, bu da baş beynin fəaliyyətinə müsbət təsir edir. Bu, özünəməxsus gimnastikadır. Ona görə də tez-tez baş verən əsnəmə halları uzun müddət davam edən fəaliyyətsizlikdən xəbər verir.

Dördüncüsü, əsnəmə "beyni sərinləşdirməyə" kömək edir. Bəzən insan ona çox isti olduqda əsnəməyə başlayır. Bu zaman orqanizmə sərin hava "gəlir".

Beşincisi, əsnəmənin köməyi ilə orta qulaqda təzyiq tənzim olunur. Əsnəmə prosesində yevstaxiya borularına aparan kanal-girişlər açılıb-qapanır. Bu da qulaqların tutulmasının qarşısını alır.

Həmçinin, sakitləşmək, yuxudan əvvəl rahatlaşmaq və ya gümrahlaşmaq, psixoloji gərginliyi aradan qaldırmaq üçün də əsnəyirlər. Əsnəmə bizim orqanizmimizə bir çox narahatlıqlardan qurtulmağa kömək edir. Ona görə də əsnəmənin qarşısını almağa çalışmaq lazım deyil.

Ruhiyyə Əliyeva

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10436
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik